# BÖYÜK AZƏRBAYCAN ŞAİRİ XAQANİ ŞİRVANİNİN 900 İLLİK YUBİLEYİ

***Azərbaycan Respublikasının Prezidenti 2026-cı il 28 yanvar tarixində «Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında» Sərəncam imzalamışdır.***

Əfzələddin Xaqani Azərbaycanda Nizami Gəncəviyə qədər olan ədəbiyyatın ən parlaq, ən qüdrətli simasıdır. O, ədəbiyyata yüksək sənətkarlıq, güclü siyasi-ictimai, humanist məzmun gətirmişdir. 17.000 beytlik şeirlər divanı, Yaxın Şərq ədəbiyyatında «Töhfətül-İraqeyn»adlı ilk poema yazan Xaqani Şirvani dünya ədəbiyyatında böyük irs qoymuşdur. Əsl adı Əfzələddin İbrahim olan dahi qəzəl, qəsidə, rübai və məsnəvilər şairi Xaqani Şirvani 1126-cı ildə Şamaxıda anadan olmuşdur.

8 yaşında olarkən atasını itirmişdir. Dövrünün məşhur həkimi, alimi, filosofu olan əmisi Kafiəddin ibn Ömər Osmanın mükəmməl tərbiyəsi ilə böyümüşdür. Gənc yaşlarından yazdığı şeirləri ilə xalq arasında şöhrət tapır. Müəllimi, eyni zamanda Şirvan şahlarının məlik üş-şüərası olan Əbül-üla 1151-ci ildə 25 yaşlı Xaqanini saraya dəvət etmişdir. Çox keçmir ki, Xaqani Əbül-ülanın qızına aşiq olur və onunla evlənir. Yazdığı şeirlərin gözəlliyindən ona xaqanlara layiq və şirvanşahlara məxsus olmasını təsdiq edən «Xaqani» təxəllüsü verilir.

1156-cı ildə Məkkəyə ziyarətə gedən Xaqani yolüstü bir çox Şərq ölkələrində olur, həyat və onun fəlsəfəsi, insanların yaşam tərzini öyrənir. Alimlərlə görüşləri onun fikir və düşüncələrinə çox böyük təsir göstərir. Gənc şair Yaxın Şərq ədəbiyyatının ilk epistolyar məsnəvisi olan «Töhfətül-İraqeyn» poemasını yazır.

Şair bu poemada səfər macəralarından tutmuş, Yaxın Şərq xalqlarının həyatından və dəyərli insanlarla görüşlərindən söhbət açılır. Bəs niyə bu qədər şan-şöhrət içində, maddi sıxıntı çəkməyən, rahat yaşayan şair yazdığı mədhiyyələrin peşmançılığını çəkməyə başlayır? Nə səbəbə? Böyük cəsarət tələb edən «Mədain xərabələri» fəlsəfi qəsidəsində və bir çox digər qəsidələrində Xaqani, saray əhlinin iç üzünü, ikiüzlüyünü və riyakarlığını poetik dildə ifadə edir. O, «Xaqani» deyil, «Xəlqani» olduğunu bildirir:

*İstəmirəm adımı çağıralar Xaqani,*
*Mən yoxsullar şairi, Xəlqaniyəm, Xəlqani.*

Onun gözlənilməz şeirləri saray şairlərinin haqsız hücumlarına məruz qalır. Şamaxıdakı saray mühitinin əzici təsiri ilə o özünü «qanadı qırılmış quş kimi qəfəsdə» hiss etməyə başlayır. Saraydan tamamən getmək ümidilə səfərə çıxmaq istəsə də, xahişi rədd edilmişdi.

Bu zaman Xaqani, gizli surətdə Şirvandan getməyə cəhd göstərəndə I Axsitanın əmrilə həbs olunur və 7 ay Şabran qalasında saxlanılır. Siz bilən o yenə əvvəlki kimi yaşaya bilərdimi? Onun çox açıq baxışlı olmağı, yeniliklərə doğru olan fikirləri, ictimai zülmə və riyakarlığa qarşı üsyanı saray divarlarına sığardımı? 1173-cü ildə ailəsi ilə birlikdə Şirvanı həmişəlik tərk edən şair ömrünün sonuna qədər Təbrizdə yaşayır.

*Şamaxı! Ey mənim sevimli yurdum,*
*Mən sənin qoynunda xaniman qurdum.*
*İndisə acığın tutmuşdur mana,*
*Sənin qucağından ayrılsam, ana,*
*Ümidim, pənahım Təbrizdir, Təbriz*
*O şəhər də mənə mehriban, əziz.*
*Siz mənə həyatı etdiniz əta,*
*Sən mənə anasan, Təbrizsə Ata.*
*Anasından küsən körpə bir uşaq*
*Ata ağuşunda yer tapar ancaq!*

Xaqani çox rəhmli, düzgün, humanist insan idi. «Uşaqlıqdan adətim bu olub ki, inciyim, amma incitməyim». Bu ruhlu zəngin şəxsiyyətdən çoxları həm şair, həm filosof, həm yenilikçi kimi bəhrələnmiş və bunu etiraf etmişlər. Xaqaninin Nizamiyə, Hafizə, Sədi Şiraziyə və digər Şərq klassiklərinə çox böyük təsiri olmuşdur.

20 yaşlı oğlunu, sonra isə qızını və həyat yoldaşını itirən şair sonra çox ağır vəziyyətə düşür. Bu hadisələr onu sükunət axtarışına, Həcc ziyarətinə və əqli-ruhani poeziyayay önəldir.1199-cu ildə Təbrizdə vəfat edən dahi şairimiz Xaqani Şirvani «Şairlər məqbərəsi» adlı Sürxab qəbirstanlığında dəfn olunub. Qəbrində bu misralar yazılmışdır:

*Söz məndən qaldı yadigar,*
*Qalanlara Salam olsun.*



Onun ən yaxın dostu olan dahi Nizami Gəncəvi Xaqaninin ölümündən sonra ona mərsiyə yazır:

*Hey deyirdim ki, mənə mərsiyə*
*Xaqani yazar,*
*Heyf, Xaqaniyə mən mərsiyə*
*yazdım axır.*

Xaqaninin «Divan»və»Külliyat»ı əsrlər boyu məşhur xəttatlar tərəfindən üzü köçürülə-köçürülə yayılmış və bizə gəlib çatmışdır.

«Azərbaycan Mədəniyyəti — 2040» Mədəniyyət Konsepsiyasının icrası çərçivəsində Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası «Kitablar səltənətinin inciləri» adlı mütaliə silsiləsində böyük Azərbaycan şairi Xaqaninin 900 illik yubileyi ilə əlaqədar onun qəzəlini oxuculara təqdim etmişdir.

Mərkəzi Kitabxananın Fəxri oxucuları yazıçı Şahzadə İldırım və şair-qəzəlxan Ceyhun Möhübbi izləyicilərə Xaqaninin məhşur qəzəllərindən birini səsləndirmişdirlər. Qəzəldə aşiqin sevdiyinə olan dərin həsrəti, incə hissləri tərənnüm olunur. Ölməz söz ustasıXaqani sevgilisinin gözəlliyini vəsf edir, şairin sevgisi bir dəryadır. Qəzəl sosial şəbəkələrdə izləyicilərə təqdim edilmişdir. Oxucu və izləyicilərə Xaqani Şirvani kimi dühanın əsərlərini çox mütaliə etmək tövsiyə edilir.

***Təranə HEYDƏROVA,***
**M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının İnformasiya-resurs şöbəsinin müdiri.**